Abbasov E. Şəhidin hünər dastanı // Xalq qəzeti. - 2022. - 9 oktyabr. - № 220. - S. 5.

2020-ci il sentyabr ayının 27-də başlayan İkinci Qarabağ müharibəsi 44 gün çəkdi. Müharibənin hər günü, hər saatı, hər bir dəqiqəsi xalqımızın igid oğullarının qəhrəmanlıq nümunələri ilə zəngindir. Məhz bu səbəbdən də 44 günlük Vətən müharibəsini xalqımızın qəhrəmanlıq salnaməsi adlandıra bilərik. Azərbaycanın bütövlüyü, Qarabağın azadlığı uğrunda canından keçən igid Vətən oğullarından biri də İbrahim Lələyev olub.

İbrahim Həzrətqulu oğlu Lələyev 1996-cı il avqust ayının 25-də Masallı rayonunun Hışgədərə kəndində anadan olub. O, 2014-cü ildə E.Ağayev adına Hışgədərə kənd tam orta məktəbini bitirib. O, 2015-2017-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin Qazax rayonunda yerləşən “N” saylı hərbi hissəsədə müddətli həqiqi hərbi xidmətdə olub.

2016-cı il aprelin birindən ikisinə keçən gecədən Ermənistan ordusu ilə Azərbaycan Silahlı Qüvvələrinin bölmələri arasında cəbhənin Tərtər və Cəbrayıl-Füzuli istiqamətlərində başlanan döyüşlərdə iştirak edib. Yoldaşları onun həmin döyüşlərdə göstərdiyi igidliyi bu gün də ehtiramla xatırlayırlar. O, digər əsgər və zabitlərimiz kimi bütün Azərbaycan hərbçiləri üçün daim cəsur və mərd əsgər örnəyi olaraq xatırlanacaq.

İbrahim Lələyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpası üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin, Cəbrayılın, Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Cəsur əsgər oktyabrın 10-da Cəbrayılın azadlığı uğrunda aparılan hərbi əməliyyatlar zamanı şəhid olub. Şəhidin nəşi doğulub boya-başa çatdığı Masallı rayonunda torpağa tapşırılıb.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə və ləyaqətlə yerinə yetirən İbrahim Lələyev Azərbaycan Respublikasının Ali Baş Komandanı Prezident İlham Əliyevin sərəncamına əsasən, “Vətən uğrunda”, “Cəsur döyüşçü”, “Qubadlının azad olunmasına görə”, “Cəbrayılın azad olunmasına görə” medalları ilə təltif edilib.